*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 171-177* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.171*

## Peyami Səfanın "Madmazel Noralyanın kreslosu" romanında dini-mistik axtarışlar

**Eşqanə Babayeva**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: eshqane@mail.ru
ORCID ID: https://orcid.org/0000-0002-4934-4168

**Annotasiya.** XX əsrin əvvəlləri dinamik sürətlə inkişaf edən türk romanı faktlar etibarilə zəngin və çoxçalarlı idi. Müraciət olunan mövzularda rəngarənglik duyulur, yazıçılar həyatın və zamanın gerçəklərindən irəli gələn problemlərə məxsusi yer ayırırdılar. Bu mərhələdə türk romançılığının inkişafında əsas ədəbi təmayüllərdən biri də psixoloji və fəlsəfi mövzulara meyilin artması, insan konsepsiyasının ön plana gəlməsi idi. Xüsusilə Peyami Səfanın yaradıcılığında bu problem leytmotiv təşkil edirdi. Onun əsərlərində psixoanalitik təhlil, şüuraltı travmalar, dini-mistik təmayüllər, metafizik axtarışlar üstünlük təşkil edirdi. Türk psixoloji romanını intibah mərhələsinə yüksəldən Peyami Səfanın yaradıcılığında "Madmazel Noralyanın kreslosu" romanı xüsusi yer tutur. "Doqquzuncu cərrahiyyə şöbəsi", "Bir tərəddüdün romanı", "Tənhayıq" romanlarında olduğu kimi, bu əsərdə də insan konsepsiyası ön plana gətirilir, insan psixologiyası ən xırda detallarına qədər təhlil süzgəcindən keçirilir. Bu baxımdan yazıçının tədqiqata cəlb edilən romanı aktuallıq və əhəmiyyət kəsb edir. Əsərdə insana fəlsəfi-psixoloji aspektdən yanaşılaraq, daha dərin mənəvi qatlara enilir, obrazın ruhi-psixoloji təlatümləri, hallüsinasiyaları, qorxuları, tərəddüdləri, bir sözlə, şüuraltı travmaları, olum, ya ölüm fəlsəfəsi, ən başlıcası isə həqiqət axtarışları və mənəvi yolçuluğu özünəməxsus şəkildə əks olunur. Bu axtarışlar zamanın fövqünə çıxaraq, metafizik dərinlik qazanır. Ənənə və novatorluğu özündə birləşdirən əsər sufi-fəlsəfi ideyaların əksi baxımından da əhəmiyyət kəsb edir. Məqalədə, yazıçının sözügedən romanı sufi-fəlsəfi, dini-mistik axtarışlar kontekstində tədqiqata cəlb olunmuş, psixoanalitik təhlil süzgəcindən keçirilmişdir.
**Açar sözlər:** Türk romanı, ənənə və novatorluq, psixoanaliz, ekzestensializm, sufizm

**Məqalə tarixçəsi:** göndərilib – 13.11.2024; qəbul edilib – 26.11.2024

## Religious-mystical searches in Peyami Safa's novel "Mademoiselle Noraliya's Armchair"

**Eshgana Babayeva**
Doctor of Philological Sciences, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: eshqane@mail.ru
ORCID ID: https://orcid.org/0000-0002-4934-4168

**Abstract.** The Turkish novel, which developed dynamically at the beginning of the 20th century, was rich in facts and multifaceted. There is variety in the topics addressed, the writers devoted special space to the problems arising from the realities of life and time. At this stage, one of the main literary trends in the development of Turkish novels was the increase in psychological and philosophical themes, the human concept coming to the fore. This problem was a leitmotif, especially in Peyami Safa's work. His works were dominated by psychoanalytical analysis, subconscious traumas, religious-mystical tendencies, and metaphysical searches. Peyami Safa, who raised the Turkish psychological novel to the stage of renaissance, has a special place in the novel "Mademoiselle Noraliya's Armchair". As in the novels "The Ninth Surgery Department", "A Novel of a Hesitation", "We Are Lonely", the human concept is brought to the fore in this work, and human psychology is analyzed down to the smallest details. From this point of view, the novel of

the writer involved in the research is relevant and important. In the work, the human being is approached from a philosophical-psychological aspect and descends to deeper spiritual layers, the mental-psychological upheavals, hallucinations, fears, hesitations of the image, in a word, subconscious traumas, the philosophy of life or death, and most importantly, the search for truth and spiritual travel is reflected in a unique way. These searches go beyond time and gain metaphysical depth. The work, which combines tradition and innovation, is also important in terms of reflection of Sufi-philosophical ideas. In the article, the mentioned novel of the writer was analyzed in the context of Sufi-philosophical, religious-mystical researches, and was subjected to psychoanalytical analysis.

**Keywords:** Turkish novel, tradition and innovation, psychoanalysis, existentialism, sufism

**Article history:** received – 13.11.2024; accepted − 26.11.2024

## Giriş / *Introduction*

Psixoloji-fəlsəfi məzmunlu hər bir ədəbi əsərin mərkəzində mürəkkəb daxili aləmi olan insan amili dayanır: İnsan, onun duyğuları, düşüncə sistemi, instinktləri və özünə belə etiraf edə bilmədiyi və ya adını qoya bilmədiyi mübhəm duyğuları bu və ya digər şəkildə öz əksini tapır. Psixoloji romanlarda bu amil daha da ön plana gətirilərək, insan ruhunun dərinlikləri təhlil süzgəcindən keçirilir. Ədəbi xarakter bir növ mürəkkəb insan psixikasının kodlaşmış məzmunu olaraq özünü göstərir. İnsan psixologiyasının dərinlikləri Peyami Səfanın “Madmazel Noralyanın kreslosu” romanında xüsusi ustalıqla öz əksini tapır. Ə.H.Tanpınar Peyaminin bu əsəriylə “həyat təcrübələrini daha spirtual bir plana nəql etdiyini” [12, s.124] vurğulayır. Yazıçı yaratdığı obrazların daxili dünyasına nüfuz etmək üçün təkcə ənənəvi üsullardan – portret, mənzərə, hərəkət, davranış və s.dən deyil, tamamilə yeni üsullardan da istifadə edərək, qəhrəmanın təhtəlşüurundakı fırtınaları əks etdirərək, onun mənəvi azadlığının sərhədlərini aşmağa çalışır. Bununla da qəhrəmanı öz daxili “mən”i ilə təkbətək qoyub, iç səsini ifadə etməyə çalışır.

## Əsas hissə / *Main Part*

Daxili “mən”in iç səsinin çoxçalarlığı “Madmazel Noralyanın kreslosu” romanında müxtəlif arxetip və üsullarla ifadə olunur. Əsərdə izdihamlar içində tənhalıq, xəyalətlər, kölgələr, xışıltılar, ayaq səsləri kimi parapsixoloji nüanslar müşahidə edilir. Yazıçının digər romanlarında olduğu kimi, bu əsərdə də səbəbsiz qorxular, yuxugörmə və qarabasma aparıcı xətt təşkil edir. Qəhrəmanın şüuraltı hislərini ifadə edən üsullardan biri də yuxudur. Z.Freyd [5, s.110] ilk baxışdan gərəksiz nəsnə təsiri bağışlayan yuxunun əslində insan ruhuna dinclik verməyən bir səbəbi olduğunu qeyd edir. N.Tosun isə yuxunu “şüuraltının oynadığı oyun” [14, s.301] hesab edir. Bədii ədəbiyyatda yuxugörmə həm də qəhrəmanın psixoloji portretininin mühüm tərkib hissəsidir. Yuxugörmədə şüurun irreal aləmlə əlaqəsi güclənir, əsrarəngiz sirlər içərisində olan qəhrəmanı anlamaqdan ötrü mövcud şərtilikdən kənara çıxmaq tələb olunur. Bunu əsas qəhrəmanın yuxularında da müşahidə edirik. Təsadüfi deyil ki, əsər Fəridin yuxusu ilə başlayır. Röyasında ata-anasının qəhqəhələrini eşidən qəhrəman ayıldıqdan sonra da bunu real həyatda eşidirmiş kimi hiss edir. Daxili monoloqlardan Fəridin dərin psixoloji gərginlik keçirdiyi ortaya çıxır. Digər psixoloji romanlarda olduğu kimi, burda da daha dərin mənəvi qatlara enilərək, uşaqlıqdan gələn psixoloji zədələr üzərində durulur. Fəridin dualist xarakterinin, parapsixoloji vəziyyətinin əsl səbəbləri elə bu qatlarda əks olunmuşdur. Parçalanmış bir ailənin övladı olması bu səbəblərdən ən başlıcasıdır. İçki və qumar düşkünü olan ana vərəm xəstəliyinə tutulmuş, bu xəstəliyi qızlarına da keçirmişdir. Bir-birinin ardınca anasının və bacılarının ölümü, balaca bacısı Nilufərin xəsis xalasının hi-

mayəsinə keçib, zülmə məruz qalması, bu faciələrdən sonra atasının Londona qaçıb getməsi, izini itirməsi kimi hadisələr onun psixikasında sağalmaz yaralar açmış, silinməz izlər buraxmışdır. Fəridin şüuru faciəvi bir atmosferdə formalaşmışdır. Gördüyü yuxular yaşadıqlarına daxili etirazı olaraq ortaya çıxır. Tibb Universitetinin üçüncü kurs tələbəsi olan Fəridin monoloqlarından onun necə dəhşətli bir tənhalıq içində çırpındığını görürük: "Yapayalqızam mən. Cibimdə dördcə lirə pulumdan, bir-iki dəst paltarımdan, xırda-xuruş bir-iki əşyamdan başqa heç nəyim və heç kimim yoxdur" [9, s.62]. Və ya: "İçinə çökən tənhalıq duyğusu onu olduğu yerə yıxacaq qədər ağırdır" [9, s.203].

Tənhalıqdan qorxmaq, amma izdihamlardan da qaçmaq, sosiallıq və ya assosyallıq kimi ziddiyyətlər içində qalan Fəridin iç dünyası əsər boyunca ən kiçik təfərrüatlarına qədər əks olunur. Onun bütün qərarlarında tərəddüd, qərarsızlıq hiss olunur. Məsələn, tibb ilə fəlsəfə fakültəsi arasındakı seçim qərarsızlığını, sevgilisi Səlma ilə barışmaq, eyni zamanda onu axtarmaq istəməməsi kimi hallarını göstərə bilərik. Fəridin "nə qəribə ruhum var. Dəli deyiləm mən, bir dəli qədər bəsit deyiləm. Bəs nəyəm mən" [9, s.107] çılğınca suallar içində çırpınışı, ruhi-psixoloji durumunun təzahürü olaraq ortaya çıxır. Fərid müxtəlif qorxularla üz-üzə qalır: kimisə itirmək, dəli olmaq, yaşamaq, ölmək, hətta yatıb bir daha oyana bilməmək qorxusu və s. Xüsusən səbəbsiz qorxular, qorxuya aid görüntü, səs, qoxu və s. qəhrəmanın ruhi-psixoloji vəziyyətində dərin gərginlik yaradır. Z.Freyd real qorxu ilə nevrotik qorxu arasında fərqə toxunaraq qeyd edir ki, "Gerçək təhlükə tanıdığımız, bildiyimiz təhlükədir, gerçək qorxu da belə təhlükədən doğulur. Nevrotik qorxu isə tanımadığımız, bilmədiyimiz təhlükələrdən qaynaqlanan qorxulardır" [4, s.106]. Beləliklə, Freyd qorxuyla bağlı bu nəticəyə gəlir ki, insanın ruhi vəziyyəti uşaqlıq dövründə yaşadığı, lakin xatırlaya bilmədiyi hadisələrlə əlaqədardır. Deməli, şüurun alt qatlarında qalan xatirələr, səslər, qoxular, hətta müəyyən görüntülər müəyyən bir vaxtdan sonra, istəmədiyi anda geri qayıda bilir. Yuxarıda qeyd etdiyimiz kimi, qəhrəmanın yuxularının hətta oyaqkən davametmə səbəbi də budur. Məsələn, hallüsinasiya görən Fəridin daxili monoloqunda bu qorxular öz əksini belə tapır: "Amma mən qapını içəridən kilidləmişdim. Açarı da üstündə. Çöldən açarla aça bilməzlər ki. Bəs bu kimin əlidir? Yoxsa yuxudur? Yoxsa dəli olmuşam?... Udqundu. Dərindən nəfəs aldı. Bütün duyğuları, iradəsi, mühakiməsi yerində idi. Titrəməyə başladı" [9, s.134]. Fəridi narahatçılığa salan hislərdən biri də həmişə onu kiminsə izləməsi duyğusudur. Uşaqlığından bəri iri, qapqara bir köpəyin onu təqib etməsini hiss edər, qorxudan titrəyərdi. Bu vahimələri bir az səngisə də, yataqxanada yenidən dirçəlir. Hətta təsadüfən küçədə gördüyü bir it onu yenidən dəhşətli qorxulara salır. Nümunələrə baxaq; "Fərid, on bir ildən sonra ilk dəfə bu qara köpək xofunu yoxsa yenidən yaşayırdı? Titrəməyə başladı. Heyvana tərəf əyilə bilmirdi. Var idi, yoxsa yox? Bir neçə addım qaçıb yenidən durdu. Köpək yenə ayaqlarının dibində idi. Əgər qarabasmadırsa, yatağına qədər gəlib qoynuna girəcəkdi. Vaxtıyla düz il yarım bu köpəklə qoyun-qoyuna yatmışdı" [9, s.89]. Məlum olduğu kimi, onu əslində qorxuya salan qara köpəyin varlığı deyil, yoxluğu idi. Ona görə də, Vafi bəydən orda bir iti görüb-görmədiyini soruşaraq dəqiqləşdirməyə çalışır. Fərid-Vafi bəy, Fərid-Yəhya Əziz bəy, Fərid-Nilufər obrazlararası münasibətlər, dialoqlar və monoloqlar Fəridin daxili konfliktinin məğzini ortaya çıxarır. Qeyd edək ki, maddi imkansızlıqdan pansionata köçən Fərid, burda bir-birindən qəribə insanları görüb, daha da dərin böhranlar keçirməyə başlayır. Qəhrəmanın diliylə desək, Vafi bəyin əcinnələri arasında yaşamağa başlayır. Psixopat qatil Tosun bəy, zavallı ixtiyar Tahir bəy, yanğında ərini itirib iki uşağıyla bura sığınan Əda xanım, yanğından sonra dili tutulan balaca Zəhra, küçələrdə qəzet satmaqla anasını və bacısını dolandıran balaca Babuş, Qərb və Şərq mədəniyyətini dərindən bilən Yəhya Əziz bəy Fəridin xarakterinin açılmasında bu və ya digər dərəcədə rolu olan surətlərdir. B.Ayvazoğluna görə, əslində burada pansionat simvolik xarakter daşıyır. "Peyami bu aşağı səviyyəli, pis mühitdəki rütubətli, qaranlıq pansionatdan istifadə edərək həyatın görmədiyimiz üzünü göstərmək, Fəridin Böyükadanın aydın, işıqlı mühitində yaşayacağı mistik aydınlanmanı bu təzadla daha güclü ifadə etmək istəmişdir" [2,

s.415-416]. Onun bura köçməsilə hadisələr daha da gərginləşir, konflikt yüksələn xətlə inkişaf etməyə başlayır. Xüsusən, gecələr yuxuda gəzən Zəhranın silueti basdırdığı duyğuları, xofları yenidən ortaya çıxarır. Hətta bəzən Zəhra olmasına şübhə etdiyi çılpaq qadın siluetinin onu qarabaqara izlədiyini hiss edir. Diqqəti cəlb edən obrazlardan biri də Fəridin xəstə mizaclı bacısı Nilufərdir. Xalasının yanında qalan Nilufər daim qardaşına xalasının ona əzab-əziyyət verdiyini, incitdiyini danışıb, şikayət edir. Fəridin Tosun bəyin yanında bu məsələni açdığı, boğaza yığıldığından əvvəl-axır yetimin malına, həyatına qəsb edən xalasını öldürəcəyini söylədiyi gecə xalası qəribə bir təsadüflə qətlə yetirilir. Əsərdə “zərif qəlbli canavar” kimi təqdim edilən Tosun bəy, Fəridi bu cinayətdən xilas etmək üçün xalanı öldürüb, cəvahirlərini ona gətirib verir. Diqqəti cəlb edən parapsixoloji hallardan biri də, xalanın qətlə yetirildiyi gecə balaca Zəhranın bunu hiss eləməsi, qışqırıb fəryad qoparmasıdır. Yeri gəldikcə, əsərdə telepatiya məsələsinə toxunulur, bu qəribəliklərin sirri mistikaya bağlanaraq təqdim edilir. Xalanın ölümü, Fərid üçün maddi və mənəvi mənada bir qurtuluş, eyni zamanda dərin psixoloji sarsıntı qaynağına çevrilir. Xalasının eynən onun düşündüyü kimi öldürülməsi “əcəba xalamı mən öldürdümmü?” [9, s.169] şübhələrinə salır, məsum günahkarlıq duyğusu keçirir. “Fəqət çantalı kölgə, əgər Fəridin yatarkən vücudundan ayrılan ruhu deyildirsə, onun xalasını bıçaqla ürəyindən vurub öldürmək istədiyini, qanlı ovuclarıyla ölünün üzünü qızıl qana boyamağı düşündüyünü nə bilirdi axı” [9, s.169]. Vicdan duyğusu, qorxular, iztirablar, əzablar daha da güclənərək, onu mənəvi axtarışa çıxarır. Madmazel Noralya adlı bir qadının evini kirayəyə götürməsi və Noralya ilə tanışlığı, aralarındakı dialoq konflikti kulminasiyaya qaldırır. Ruh və cism arasında dərin ziddiyyət yaşayan, xəyalla-gerçəklik arasında qalan qəhrəmanımız axtardıqlarını burda tapır. Səslər, tıqqıltılar, qarabasmalar onu burda da təqib etsə də, gecəyarısı yuxarı otaqdan kiminsə onu çağırdığını eşitməsi, səsin arxasınca Noralyanın otağına getməsi Fəridi vahimələndirmir. Ən maraqlısı isə oyandıqdan sonra yuxusunu dostu Yəhya Əzizə danışıb, Fotika ilə birlikdə gecə yuxuda gördüyü otağa qalxıb, qapısı kilidli tozlu otaqdakı bütün əşyaların yuxuda olduğu kimi yerli-yerində görməsidir [9, s.233-234]. Fərid gördüklərinin yuxu olmadığına bütün qəlbiylə inanaraq, “Mənimki yuxu ola bilməz. Deyə bilərəm ki, şüurum oyaq vaxtımdakından daha iti idi” [9, s.231], – deyir. Bəs hadisələrin düyün nöqtəsini açan Noralya kim idi?! Qısa haşiyə çıxıb qeyd edək ki, bu obrazı, qulluqçu Fotikanın dilindən və gündəliklərindən tanıyırıq. Noralya bir il öncə vəfat edən, əzabkeş bir ömür yaşayan mömin bir qadın idi. İtalyan əsilli ana ilə türk əsilli atanın övladı olması hər iki mədəniyyəti yaxından tanımağına vəsilə olmuşdur. Yeddi yaşına qədər anasının yanında böyüyən Noralya italyan və fransız dillərini öyrənmiş, boynunda xaç kilsəyə getmiş, daha sonra on səkkiz yaşına qədər də ata nənəsinin himayəsinə keçən Noralya burda həyatını Nuriyə kimi davam etdirmiş, türk dilini, Şərq mədəniyyətini, İslam dinini öyrənmiş, Quran oxuyub məscidə getmişdir. Bu iki fərqli mədəniyyət onda ziddiyyət yaratmamış, hər iki dinə tolerant yanaşmışdır. Noralya da, Fərid kimi ruhi-iztirablar keçirmiş, öz yalqızlığı ilə təkbaşına qalmışdır. Gündəliyindəki sətirlərdən onun necə dəhşətli bir tənhalıq duyğusuna qapıldığını oxuyuruq; “Artıq yalqızam, yalqız, yalqız... Ucu-bucağı görünməyən okeanların qaranlıq dalğalarında üzən saman çöpü kimi yalqız” [9, s.262]. O, ruh və nəfs arasında mücadilə aparmış, özünü tapmağa çalışmış, aşılmaz qaranlıq divarın nəfsi, mənliyi olduğunu kəşf etmiş və əbədiyyət sirrinə vaqif olmuşdur. Qeydlərində, “Dil məsti Mevlana”dan aldığı alıntı ilə özünü belə xarakterizə etmişdir. “Sənin mənliyin bir dağdır ki, günəşi görməyinə, nurunu almağına mane olur. Nəfsində öl: Onda (Allahda) yaşa” [9, s.267]. Noralyaya görə, “Bütün kainatı dolduran müharibələr, mənliyini öldürə bilməyən insanın bir qayə uğrunda ölməyi öyrənməsi üçün Cənabi Haqqın ona verdiyi qanlı dərslərə bənzəyir” [9, s.266]. Nümunədən də göründüyü kimi, sufizmin təməl məsələlərindən bir nəfs, ruh və bədən arasındakı mübarizədir. Noraliya da nəfsini tərbiyə etmək, ondan qurtulmaq, o ali mərtəbəyə qalxmaq üçün ruhunu arındırmağa çalışmışdır. Qeyd edək ki, “Özünümüdafiədən ibarət olan nəfs şüuru Allahın işarələrini, möcüzələrini qavraya bilməz, cəhalət və

korluqla bu möcüzələrə şübhə ilə yanaşar" [1, s.92]. Buna görə də "qorxulacaq yeganə şey öz eqomuzdur. Eqo əsl mövcudiyyətin düşmənidir" [6, s.77]. Noralya yuxugörmə vasitəsilə Fəridi öz eqosundan qurtulmağa, mənəvi arınmaya dəvət edir. Fordham "Yunq psixologiyasının ana xətləri" əsərində bu məsələyə toxunaraq yazır ki, "ən çarpıcı yuxular, şüuraltının özündən ortaya çıxaraq, yabançı bir şeyi diqqəti cəlb edəcək dərəcədə aydın bir şəkildə əks etdirən röyalardır. Belə yuxular şüuraltının şüurlu davranışını tamamilə dəyişdirməyi hədəfləyən meyilləri ifadə edir. Bu yuxular elə təsiredici gücə malik ola bilər ki, heç bir yozuma ehtiyac olmadan yuxu sahibini həqiqətən də dəyişdirə bilsin" [3, s.135]. Beləliklə, yazıçı bu bədii priyomdan məharətlə istifadə edərək qəhrəmanın şüuraltındakı onu narahat edən bütün məsələləri aydınlığa qovuşdurur. Əsər xronotop baxımdan da maraq doğurur. Zaman və məkan faktoru qəhrəmanın psixoloji ruhi vəziyyəti ilə həmahənglik təşkil edir. Məsələn, Nuriyə-Fərid obrazlararası münasibəti sanki zamanın fövqündə cərəyan edir. Ümumiyyətlə, qeydlərində Nuriyənin bir zamansızlıq içində yaşadığını görürük, otağında hər hansı bir saatın olmaması, yazdığı qeydlərə tarix qoymaması, illərlə otağında, kreslosunda inzivaya çəkilməsi bunun bir sübutudur. M.Təkin haqlı olaraq, Nuriyəni "içinə sürükləndiyi bunalımdan mistik fəlsəfəyə sığınaraq qurtulmuş, hidayətə ərmiş biri" [13, s.246] olaraq dəyərləndirir. Yuxu ilə reallıq arasında qalan Fərid onun vasitəsilə özünü tapır. Noralya Fəridə "Mən bu kresloda otuz iki il oturdum. Qaçdım insanlardan. Hər şeyi sildim. Ruhumun dibinə endim. Və Onu gördüm. İndi. Sən də görəcəksən" [9, s.86] – deyərək, onu öz kreslosuna oturdub, qeybə çəkilir. Fərid qısa bir vaxt ərzində ruhunda köklü bir dəyişiklik olduğunu hiss edir, "sonsuz dərinliklərə enirmiş kimi bir duyğu bütün ruhunu" [9, s.222] bürüyür. Beləliklə, Fəridin narahat ruhu hüzura qovuşur, nəfsini yenərək kimliyini yenidən qazanmış olur. Günahlarından arınmış, katarsis olmuş yeni bir Fərid obrazı ortaya çıxmış olur. Fərid-Səlma münasibətlərində də bu, özünü göstərir.

Türkiyəli tədqiqatçı Kınış yazır ki, yazıçının "onun ən böyük yükü maddəsi deyildi" ifadəsi Fəridin xəstəlik və narahatçılıqlarının bədənindən deyil, ruhundan qaynaqlandığını işarə etməklə, onun mənəvi müalicəyə ehtiyacı olduğunu göstərir [8, s.87]. Yazıçı özü də bu duyğunu "hər hansı bir məkan içərisində sərhəd tanımadan ənginləri aşaraq qabını çatlatmaq istəyən ruhla vücud arasındakı savaşın dastanı" olaraq dəyərləndirir [11, s.106]. Beləliklə, obrazların daxilində dinamik sürətlə inkişaf edən ruh-cism konflikti, ruhla cism arasındakı savaş bədii həllini tapmış olur. P.Səfa bu məsələyə toxunaraq yazır: "Bir çox yazılarımda, köhnələrin "Gizli elmlər", yenilərin "Metafizika", "Parapsixologiya"… dedikləri elmlərlə bağlı sirli vaqiələrdən və həkimliyin belə ağlına gəlmədiyi möcüzəvi şəfalardan bəhs etdim" [10, s.52]. Bu əsərdə Noralya və Y.Əziz yolgöstərici missiyasını həyata keçirir, qəhrəmanın ruhuna sirayət edərək, onu möcüzəli şəkildə sağlığına qovuşdururlar.

Əsərdə insan psixologiyasının təhlili təkcə daxili monoloqlar və daxili sual-cavab forması ilə deyil, həm də personajlar arasındakı dialoqlar vasitəsilə baş verir. Məsələn, Fəridin psixoloji ruh halını açıq şəkildə ifadə edən Fərid-Səlma, Fərid-Noralya, Fərid-Yəhya Əziz arasındakı dialoqlar aydın olmayan bir çox mətləbləri işıqlandırmağa xidmət edir.

"Madmazel Noralyanın kerslosu"nda özünü axtaran "mən"in iztirabları, tənhalıq duyğusu alman yazıçısı Henri Hessenin "Yalquzaq" romanını xatırladır. Zidd fikirlər içində çırpınan, "mən"in axtarışına çıxan Harri Haller də Fərid kimi kimsəsizdir, tənhadır. Cəmiyyətlə öz arasında uçurum hiss edir, daxilində insan və yalquzaq ruhunu daşıyır, cavabsız suallar içində çırpınır, hətta intihar etməyi belə düşünür. Yalquzağın traktatından, onun dualist xarakterini aydın görürük: "Harrinin də həyatında müstəsnalar, xoşbəxt günlər olurdu, daxilində gah canavar, gah da insan sərbəst, rahat nəfəs alır, düşünür, yaşayır, bəli, hətta nadir hallarda da olsa, barışır, bir-birini əziz tuturdu" [7, s.40]. Daxilindəki dualist ruh, mənəvi əzablar, cəmiyyətdən qopuculuq, onu öz daxilinə boylanmağa, "daxili məni"nin axtarışına çıxarır. Fəridin həyatında Noralya, onun isə həyatında Hermine böyük rol oynayır. Hər iki əsərdə qəhrəmanın əzablı yollardan keçən mənəvi yolçuluğu, ruh və cism arasındakı mübarizəsi öz əksini tapır.

## Nəticə / *Conclusion*

Təhlillər göstərir ki, Peyami Səfa bu romanında insanın mürəkkəb daxili aləmini göstərməyə çalışır. Göründüyü kimi, bu isə o qədər də sadə məsələ deyildir. Əsərdəki əsas qəhrəman, o cümlədən epizodik obrazlar əsasən dualist xarakterə malik olduğu üçün bir qədər qeyri-müəyyənlik yaradır. Müxtəlif keyfiyyətlərin bu birləşməsi psixologizmin mürəkkəbliklərini nümayiş etdirməyə kömək edir. Yazıçı insan psixikasının ən dərin qatlarına nüfuz edir, qəhrəmanın daxili aləminin tükənməz mürəkkəbliyini, sonsuz ziddiyyətlərini ortaya qoyur. Bunu isə həm yuxu, həm də real hadisələrlə ifadə etməyə çalışır. Xüsusən yuxu, kölgə, yenidən doğulma kimi müxtəlif arxetiplərdən istifadə edir. Yazıçı Fərid obrazının müstəvisində özünü axtaran, kölgəsinə əsir düşməyən, Yəhya Əziz, Madmazel Noralya kimi yol göstəricilərin sayəsində kamillik mərhələsinə qədəm qoyan daxili "mən"in təkamülünü verir. Təhlillər göstərir ki, ideya-məzmun, dil-üslub xüsusiyyətləri ilə də diqqəti cəlb edən roman ənənəvi eşq motivi və ya ailə-məişət məzmunu müstəvisində deyil, tamamilə yeni məzmun, fəlsəfi konsepsiyalar əsasında qələmə alınmışdır.

## Ədəbiyyat / *References*


1. Anissian, M. Eros in Sufism: Journey to Mystical Love. (Unpublished Doctorate Thesis), Pacifica Graduate Institute, USA. 2005.
2. Ayvazoğlu, B. Peyami Hayatı Sanatı Felsefesi Dramı / B.Ayvazoğlu. – İstanbul: Ötüken Neşriyat, 1998. – 558 s.
3. Fordham, F. Jung Psikolojisinin Ana Hatları / F.Fordham, çev. A.Yalçıner. – İstanbul: Say Yayınları, 2001. − 157 s.
4. Freud, S. Ket Vurma − Belirti ve Korku / S.Freud, çev. L.Yarbaş. − İzmir: İlya Yayınevi, 2014. − 115 s.
5. Freud, S. Psixoanalizlə ilkin tanışlıq / S.Freud; tərc. ed. A.Gündüz. − Bakı: Qanun nəşriyyatı, 2018. − 320 s.
6. Helminski, K. Bilen Kalp - Ruhsal Dönüşümün Sufi Yolu / K.Helminski, çev.Refik Algan. İstanbul: Dharma Yayınları, 2006. – 351 s.
7. Hesse, H. Yalquzaq / H.Hesse; tərc. ed. V.Hacıyev.Bakı: Qanun, 2015. − 208 s.
8. Kınış, M. Arayış ve Kendini Gerçekleştirme Sorunu / M.Kınış. − İstanbul: İnsan Yayınları, 2000. − 495 s.
9. Safa, P. Matmazel Noraliya`nın Koltuğu / P.Safa. − İstanbul: Ötüken Neşriyatı, 1994. − 307.
10. Safa, P. Objektif 8: 20. Asır Avrupa ve biz / P.Safa. – İstanbul: Ötüken, 2019. – 278 s.
11. Safa, P. Yazarlar, Sanatçılar, Meşhurlar / P.Safa. İstanbul: Ötüken Yayınları, 1990. – 254 s.
12. Tanpınar, A. H. Edebiyat üzerine makaleler / A.H.Tanpınar. – İstanbul: Dergâh, 2015. – 535 s.
13. Tekin, M. Romancı Yönüyle Peyami Safa / M.Tekin. İstanbul: Ötüken Neşriyat, 2014. – 360 s.
14. Tosun, N. Modern Öykü Kuramı / N.Tosun. − Ankara: Hece Yayınları, 2011, − 359 s.

## Религиозно-мистические отсылки в романе Пеями Сафа «Кресло мадемуазель Норалии»

**Эшгана Бабаева**
Доктор филологических наук, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: eshqane@mail.ru
ORCID ID: https://orcid.org/0000-0002-4934-4168

**Резюме.** Турецкий роман, динамично развивавшийся в начале XX века, был богат фактами и многогранен. Затрагиваемые темы разнообразны, особое место писатели уделили проблемам, вытекающим из реалий жизни и времени. На этом этапе одной из основных литературных тенденций развития турецкого романа стало увеличение психолого-философской тематики, выдвижение на первый план человеческой концепции. Эта проблема была лейтмотивом особенно в творчестве Пеями Сафа. В его творчестве преобладали психоаналитический анализ, подсознательные травмы, религиозно-мистические тенденции и метафизические поиски. Роман «Кресло мадемуазель Норалии» занимает особое место в творчестве Пеями Сафа, поднявшего турецкий психологический роман на ступень ренессанса. Как и в романах «Девятое хирургическое отделение», «Роман колебаний», «Одиночество», в этом произведении на первый план выдвигается человеческая концепция, а психология человека анализируется до мельчайших подробностей. С этой точки зрения роман писателя, вовлеченный в исследование, актуален и важен. В произведении человек рассматривается с философско-психологического аспекта и спускается к более глубоким духовным слоям, душевно-психологическим потрясениям, галлюцинациям, страхам, колебаниям образа, словом, подсознательным травмам, призыв “сделай или умри”, а главное, поиск истины и духовный путь уникально отражены в картине. Эти поиски выходят за пределы времени и приобретают метафизическую глубину. Работа, сочетающая традиции и новаторство, важна и с точки зрения отражения суфийско-философских идей. В статье упомянутый роман писателя проанализирован в контексте суфийско-философских, религиозно-мистических исследований и подвергнут психоаналитическому анализу.
**Ключевые слова:** турецкий роман, традиция и новаторство, психоанализ, экзистенциализм, суфизм